*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 462-468*
https://doi.org/10.62837/2024.3.462

**ƏLİYEVA ZEYNƏB**
**Bakı Slavyan Universiteti ,Bakı şəhəri,**
**S.Rüstəm küç, 33**
**Ezeyneb248@gmail.com**

# ALİ MƏKTƏBLƏRDƏ BƏDİİ ƏSƏRLƏRİN TƏHLİLİNƏ HƏSR OLUNMUŞ DƏRSLƏRDƏ VƏTƏNPƏRVƏRLİK DUYĞULARININ TƏCƏSSÜMÜ

***Açar sözlər:millilik,milliözünə qayıdış, Qarabağ müharibəsi , azadlıq və müstəqillik ,metodika***
***Key words:nationality,national self-determination,Karabakh war,freedom and independences,methodology***
***Ключевые слова:национальность,национальное возвращение ,Карабахская война,свабода и независимость,методология***

Ali təhsil müəssələrində tədris olunan ədəbiyyat dərslərində milli ruhda yazılmış əsərlərin təhlil edilməsi və bundan çıxış edərək tələbələrə bu ideyaların aşılanması və vətənə sevgi duyğularının dövrün tələblərinə uyğun şəkildə tədris edilməsi bu təlimin əsas məqsədlərindən biridir.Burada tədris edilən əsərlərin mövzusu və çatdırmaq istədiyi ideyalar tələbələrdə milli özünüdərk meyillərini gücləndirilməsinə xidmət edir.

Bu əsərlərin dövrün tələblərinə uyğun olaraq,fəal interaktiv metodlarla təhlil olunması ədəbiyyat dərslərinin ən əsas məqsədlərindən biridir.Bu zaman tələbə sadəcə əsəri oxumaqla qalmır,həm də onun mənimsəyir və gündəlik həyatına necə tətbiq edəcəyini də öyrənmiş olur. Burada əsas fikir tələbənin bilik və bacarıqlarını inkişaf etdirmək həm də ,onu vətənpərvər ruhda yetişdirməkdir. Bursada əsas iş müəllimin üzərinə düşür.Buna əaslanaraq deyə bilərik ki,"Dərs müəllimin yaradıcılığıdır,pedoqoji əsəridir"[1,səh60] .Burada vətənpərvərlik ruhunda əsərlər tədris olunarkən,müəllim iş üsullarından və metodlardan isitifadə etməli və əsərdə bu mövzuda olan ideyaları önə çıxarmalıdır.

Ali məktəblərdə tədris olunan ədəbiyyat dərslərində hələ bakalvr təhsilinin ilk pillələrində "Şifahi xalq ədəbiyyatı" fənni təhlil olunan zaman bayatıların, laylaların,xüsusi ilə dastanların təhlili zamanı bu mövzuya müəllim ciddi diqqət ayırır.Bu baxımdan "Kitabi-Dədə Qorqud "eposu xüsusi önəm kəsb edir.

Bu əsər sadəcə ali məktəblərdə deyil, orta məktəblərdə də tədris edildiyini bilirik. Onu demək lazımdır ki,orta məktəblərdə yaş səviyyəsi nəzərə alınaraq bu əsərin həmin yaş dövrünə uyğun olaraq ixtisar olunmuş şəkildə tədris olunur. Ali təhsil müəssələrində isə əsər tam şəkildə tədris olunur.Müəllim bu əsəri tədris edərkən ,əsas diqqət edəcəyi məsələ o olmalıdır ki,tələbədə vətəndaşlıq və azərbaycançlığın nə olduğunu anlasın və burada öz fikrini və düşüncələrini aydın və

müstəqil ifadə edə bilsin.Burada əsas məqsəd o olmalır ki,tələbədə yeni baxış bucağı yaratmaqdır.Tələbələri bu məqsədə yönləndirmək isə tamamilə müəllimin üzərinə düşür.Müəllim burada lazım olan açar suallardan istifadə etməli və tələbənin bu mövzuda fikirlərini öyrənməlidir. müəllimin bu prosesi həyata keçirərkən diqqət etməlidir ki, tələbəyə öz fikrini yeritməkdən uzaq durmalıdır.Buna "Salur Qazanın evinin yağmalanması" boyundan nümunə göstərə bilərik.Belə ki,bu boyda Salur Qazan oğlu ilə ova çıxarkən onların üzərinə yağı hücum edir, düşmən gəlib başlarının üzərini alır.Bu gərgin vaxda isə Uraz atasına bir sual verir :"O gələn nədir elə,gün kimi işıladayıb gəlir?! Toz kimi ətrafı bürüyüb gəlir"[3,səh97] Atası isə ona ,gələnin yağı olduğunu bildirir.Uraz bu dəfə atasından yağının kimi olduğunu soruşur .Ata isə ona təmkinlə cavab verir:"Yağı ona derlər ki, o bizə yaxınlaşsa ,o bizi öldürər ,biz ona yaxınlaşsaq biz onu öldürərik".Əsərin bu hissəsi tələbələrə beyin həmləsi üsulu istifadə edilərkən sual vermək məqsədə uyğun olar ki, "Nə üçün bu gərgin və dəhşətli vaxtda Uraz atasına bu sualları verir?" İkinci sual bu ola bilər ki ,"Uraz atasının verdiyi bu cavaba qane olurmu ?" Tələbərə bu sualların fikirləşməsi üçün vaxt verilmədir və müəllim dərs şəraitini elə qurmalıdır ki,sualların cavabı müzakirənin nəticəsində tələbələrə aydın olmalır.Nəticə isə budur,əsəri oxuyarkən tələbələr diqqət yetirməlidir ki,Uraz bu sualları ritorik bir şəkildə soruşmur onun fikrində "yağının" nə demək olduğu tam olaraq aydın deyil və bunun fikrilərinə ən çox etibar etdiyi insandan yəni atasından soruşur.İkinci sualın cavabı isə budur ki,bəli Urazı bu cavab qane edir."Çünki o dövr üçün Oğuz cəmiyyətinin gənc üzvü "öz və özgə" semiotik qarşıdurma formalaşır"[3,səh99].Bu o deməkdir ki,burada mənim torpağım ,mənim xalqımın mili dəyərləri və başqasının torpaqları və milli dəyərləri aləmi formalaşır.Bunu tələbələrə iş zamanı indiki dövrlə müqayisəsini vermək və bunun əsasında hər hansısa bir təqdimat işi vermək həm tələbənin dərsi mənimsəməsi üçün daha maraqlı olar ,həm də bu qarşıdırmanın hal –hazırda hansı yerdə olduğunu və onun bugünkü Azərbaycan cəmiyyətinə hansı şəkildə özünü göstərməsi haqqında informasiya formalaşdırmış olar.Müəllim eyni zamanda bir gəncin vətənin ,özünə məskən bildiyi torpağa və sahib olduğu dəyərlərə o dövrdə necə münasibət bildirdiyini və hal-hazırda necə münasibət bildirdiyi haqqında fikirləri öyrənməklə müəllim aradakı fərqləri də ortaya çıxara bilər.

"Kitabi-Dədə Qorqud" eposunda qarşmıza çıxan "öz və özgə " qarşıdurması daha sonra M.B.Məmmədzadənin "Əks inqilabçı" əsərində özünü göstərməyə davam edir.Burada artıq tələbənin diqqət edəcəyi əsas məsələ odur ki,burada bu iki tendensiya yerini dəyişmiş vəziyyətdə verilir.Belə ki,əsərdə Moskvada təhsil alan Hüseyn bəy obrazı qarşımıza çıxır .Bu obrazın sahib olduğu fikirlər həm "Dədə-Qorqud" eposundaki ,həm də bugünkü fikirlərdən fərqlidir.O 1918-ci il mart ayında baş vermiş azərbaycanlılara qarşı bu soyqrımımda öz millətini və böyüdüyü torpaqları deyil ,qarşı tərəfi dəstəkləyir.Öz millətini isə "əksinqilabçı"

adlandırır.Tələbələrə bu fənni tədris edərkən müəllim debat iş üsulundan istifadə edə bilər .Bu üsuldan istifadə edərkən müəllim belə bir sual ortaya qoya bilər “Hüseyni öz milləti haqqında bu kimi düşüncələrə nə vadar edir və onu bu fikirləri üçün günahlandıra bilərik mi?Eyni zamanda burada Bakıda törədilən qətlimanın təsviri də verilmişdir: “Bakı həyacanlı günlər keçirirdi.Şəhər od içində yanırdı. Pulemyot,top ,tüfəng qurşun səsi ilə paraxodların bombardımanı, camaatin qışqırığı,çoluq-çocuğun,qadın-qızların ah fəryadı məhşəri andırırdı.Ölən,yanan,qaçan ,çığıran,dağıdan,kəsən kəsilən bir-birinə qarışmışdı. ...Dəstə ilə qadınlar,qızlar,qocalar başları açıq,ayaqları yalın evdən-evə, küncdən-küncə qaçırdılar”[5,səh 37].Burada əsəri daha dərin təhlil etmək üçün tələbələri 2 qrupa ayırmaq daha məqsədə uyğun olar.Tələbələr əsri oxuduqdan bir qrupa bu obraz haqqında müsbət fikirləri digər qrupa isə mənfi fikirləri söyləmək tapşırıla bilər.Buna əsasında müəyyən fikirlər ortaya çıxacaqdır.Belə ki,Hüseyn obrazı təhlil edərkən 1-ci qrup onun bu bir vətən xaini olduğunu və vətəninə ,xalqına düşmən olduğunu vurğulaya bilər.Digər qrup isə Hüseyni anlaya bilər,çünki o Moskvada təhsil alır və dövr etibarı ilə ora bolşevik və kommunizim ideyalarının ən aktual olduğu ərazidir.Burada olan fikirlər ona bu şəkildə təsir etmiş ola bilər.Təbii ki,Hüseyn bu mövzuda günahsız deyil ,lakin onda da günahkar birisi vardır ki, o da düşdüyü cəmiyyətdir.Müəllim isə sonda hər iki fikirlədə razılaşa bilər.Düzdür,Hüseyn Moskvada təhsil alır və həyatı tam olaraq anlamayan bir gəncdir və müxtəlif fikirlərin təsiri altında qala bilər,lakin onun təmsil etdiyi millətə qarşı bu qədər amansız fikirdə olması və öz dəyərlərinə,dilinə qarşı bu qədər amansız olması onun şəxsiyyətində boşluqların olduğundan xəbər verir

Bundan başqa C.Cabbarlının “Əhməd və Qumru”əsərində isə bir-birini sevən iki gənc təsvir olunur və onların Şamaxı da törədilən soyqırım zamanı bir-birindən ayrı düşməsi və bu yolda çəkdikləri məşəqqətli həyat yolundan bəhs olunur.Buradakı gənclər əslində Hüseynin “əksinqilabçı” olaraq adlandırdığı insanlardır onların tək xətası vətənlərini ,böyüyüb boya başa çatdığı doğma diyarı Şamaxını sevmək və oradan ayrı düşmək istəməməkdir.

Əsərin tədrisi zamanı müəllim ilk öncə 1918-ci ilin mart ayının 31-i baş vermiş hadisələr haqqında çəkilmiş “Unudulmuş mart”filmini kiçik bir hissəsini göstərmək olar.Filmin keçdiyi ərazilərin Şamaxı və Lənkəran olduğunu və burada keçən hadisələrin hekayənin mövzusu ilə oxşar olduğununu nəzərə alarsaq, bu həm müsair dərsin motivasiya mərhələsi üçün uyğun olar ,həm də tələbələr əsərin yaşadığı dövrü və hadisələri daha əsaslı şəkildə öyrənmiş olarlar.Daha sonra tələbələrlə birlikdə rollu oyun üsulu ilə Əhməd və Qumru motivlərinin dərin təhlili aparmaq mümkündür .Omların bir –birini sevməsi ,lakin onları ayıran həyat gerçəkliklərində bu yolla daha aydın şəkildə tələbələrə aşılanacaqdır.Belə ki əsərdə Əhmədin “Ay qardaş!Yaralıyam!Şikəstəm!Şamaxı əsiriyəm!”[2,səh 235] deməsi və bunun

nəticəsində Qumrunun onu tanıması və daha sonra ona başına gələnləri danışıb onu qucaqlamaq istəməsi ,lakin qolu kəsildiyi üçün sırala bilməməsi tələbələr tərifindən rollu oyun iş üsulu ilə həyata keçirilərsə ,tələbələr həm qəhrəmanlarla empatiya qura bilər ,həm də əsəri daha aydın şəkildə başa düşüb onu təhlil edə bilər .Əsərin sonunda tələbələrin gəldiyi nəticə bu olmalıdr ki,Əhməd və Qumru motivlərinin fonunda erməni-daşnaklarının Azərbaycan torpaqlarında törətdiyi qırğınları dərindən anlamış olurlar.

1918-1920- ci illər yazılmış və ədəbiyyat dərslərində tədris olunan  əsərlər həm dramaturgiya ,həm də nəsr baxımından olduqca zəngindir və bu dövrü əhatə edən yetəri qədər əsər verilmişdir.Bu əsərlərdə verilən motivlər də olduqca müxtəlif obrazlardır.Bu obrazların təhlili zamanı,bu obrazların fonunda tələblər "Vətəni sevmək nədir və bunun üçün nə etmək lazımdır? suallarında cavab tapmış olurlar.

Bundan əlavə ,onu da deməliyik ki,bu dövrdə bir sıra nəzm əsərləri ,yəni şeirlərdə çap olunur.Buna Ə.Cavadın "Türk ordusu","Ey əsgər" şerini misal gətirmək olar. Bu əsərlərin tədrisi zamanı Ə.Cavad yaradıcılığına nəzər salmaq lazımdır.Fikrimizcə, tələbələr əsərlərinə keçməzdən öncə "Ə.Cavad kimdir və nə üçün bu müəllif əsərləri dərliklərdə tədris olunur?"sualını vermək daha məqsədəuyğun olar.Bu zaman tələbələr,hələ orta məktəbdə aldığı biliklərə əsasən onun Azərbaycanın dövlət  himnin  sözlərinin müəllifi olduğunu və onun Azəbaycan ədəbiyyatında önəmli xidmətləri olduğunu xatırlaycaqlar.Bunu müəllim klaster üsulu ilə həyata keçirə bilər.Daha sonra BİBÖ üsulu ilə orta məkbələdə aldığı bilikəri və daha sonra "Türk ordusuna" şeirini təhlil etdiyi zaman öyrəndiyi yenlilikləri göstərə bilər.

Onun türkçülük ideyalarının tərənnümünü bu şeirdə aydın görə bilirik. Müəllif haqlı olaraq əsərdə türk ordusunun bu torpaqları qoruyan əsas qüvvə hesab edir.

"Ey şanlı ölkənin şanlı ordusu,
Unutmam Qafqaza girdiyin günü
Gəlirkən qovmaya Turandan Rusu
Ayağın Qara dəniz öpdümü?"[4,səh 6]

Bu əsər tələbələ tədris edilərkən müəllim həm də, Azərbaycan-Türkiyə qardaşlığı haqqında da məlumat verə bilər.Bunu da ədəbiyyat dərslərində tədris olunan İKT-nin köməyi ilə həyata keçirə bilər.Belə ki burada əsəri indiki dövrlə inteqrasiya edərək İkinci Qarabağ müharibəsi zamanı Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasının hər zaman yanında olduğunu vurğulması və bununla bağlı video çarxlar göstərmək uyğun olardı.Eyni zamanda 1918-ci ildə də bu eyni dostluğun və qardaşlığın olması və bu dostluğun Ə.Cavad şeirləridə özünü aydın şəkildə göstərməsi də bunun ən başlıca sübutudur.Tələbələr hər iki dövrü müqayisə etdiyi zaman bunu aydın şəkildə görəcəklər.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 462-468*

Qarabağ mühribəsi və erməni-daşnaklarının Azərbaycan torpaqlarında məsələsi ədəbiyyatımız da hər zaman aktual məsələdir və bu mövzuda yazılan əsərlərin tələbələrə tədris edilməsi həm siyasi,həm də mənəvi baxımdan olduqca mühümdür..Bu baxımdan ədəbiyyatımızda bu mövzuda yazılmış kifayət əsərlər vardır və onlar ən mükəmməl şəkildə tədris etmək müəllimin ən ali vəzifələrindən biridir.

Bu əsərlərdərdə əsasən əsgərlərin itkisi ilə bağlı hadisələr,umamən 1-ci Qarabağ müharibəsi zamanı başverən hadisələr və bu hadisələrin fonunda insanlarda yaranan qəm ,kədər motivləri üstünlük təşkil edir.Bu motivlər özün V.Babanlını "Ana intiqamı" əsərinin əsas sujet xəttini əks etdirir.

Əsərin ali məktəblərdə tədrisi zamanı Hüseyn Cavid yaradıcılığın ən gözəl nümunələrindən olan "Ana" pyesi ilə müqayisəli şəkildə vermək əsərin tələbələrə mənimsədilməsi üçün vacib şərtlərdən biridir.Bu əsərin tədrisi zamanı müəllim Venn diaqramı üsulundan istifadə edə bilər.Belə ki ,hər iki əsərin oxşar və fərqli cəhətləri ortaya çıxara bilər.Hər iki əsərdə ananın mövqeyi,burada düşmən belə olsa ona qarşı mərhəmət hissi keçirməyi əsərin ortaq cəhətləri ola bilər.Hər iki əsərin məkan fərqləri ,burada yaşanan hadislərin müxtəlifliyi isə əsərlərin fərqli cəhətləri ola bilər.Əsərin bu şəkildə müqayisəli şəkildə təhlili tələbəyə həm iki əsərə qarşı kifayət qədər detallı məlumata sahib olmaq bacarığı yükləcəyək ,həm tələbədə intreqativ idrakı daha da inkişaf etməsinə yol açacaqdır.

Nəticə olaraq belə bir qənaətə gəlmək olar ki,milli, vətənpərvərlik mövzusunda yazılmış əsərlərin tədrisi zamanı tələbələrdə Azərbaycan xalqının mövqeyini milli-mənəvi dəyərlərini,sujet xəttində olan qəhrəmanların və ya şeir parçalarında verilmiş milli duyğuları mənimsətmək və bunları dövrün tələbləri uyğun olaraq İKT-dən,müasir iş üsullarından müqayisəli şəkildə həyata keçirmək lazımdır..Burada dövrün şərtləri ,həmin zaman həyata keçən hadisələr və bu gün Qarabağın,milli birliyimizin son durumu və bunun ədəbiyyatda göstərdiyi təsir də nəzərə alınmalıdır.

**Xülasə:**

Məqalədə ədəbiyyat dərslərində olan milli ruhda yazılmış əsərlər göstərilmişdir. Hər bir əsər haqqında təhlil aparılmış və bu əsərlərin milli ədəbiyyatdakı yeri təhlil olunmuşdur.Buradan çıxış edərək əsərlərdə olan milli ruhda yaradılmış motivlər əsas götürülmüşdür.Buraya daxil olan və təhlil edilmiş əsərlərin mövzusunda əsasən Qarabağ mövzusuna və erməni –daşnak qüvvələrini Azərbaycan torpaqlarında törədiyi qırğınların yaratdığı faciəvi nəticələri göstərilmişdir.Bu əsərlərin tədrisi zamanı istifadə olunan iş usulları tələbələrin inkişafı üçün mühüm rol oynayır. Bu metodlar sayəsində tələbələr sadəcə əsərləri mənimsəmir, həm də elmi-tədqiqat bilik- bacarıqlarını inkişaf etdirirlər. Məqalədə "Kitabi-Dədə Qorqud" eposununa yer verilmişdir . Burada təhlilinə obrazların müasir texnologiyalarla tələbələrə tədris olunması və bunun əsasında tələbələrdə vətənpərvərlik duyğularının

formalaşdırılması məqsədi güdür. Bundan əlavə məqalədə Cəfər Cabbarlının "Əhməd və Qumru" əsərinə də yer verilmişdir ki,burada Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı əks etdirən materiallar öz əksini tapmışdır. Burada göstərilən istifadə olunacaq filmlər və video çarxlar tələblərdə o dövrün mövcud vəziyyətinə bələd olmağa şərait yaradacaq.Bu zaman tələbələr əsəri daha dərindən anlayacaqlar.Eyni zamanda burada istifadə olunan rollu oyun metodu da əsərin canladırarkən süjetlərin hiss və həyəcanını daha dərindən anlayacaqlar.

## SUMMARY

**ALIYEVA ZEYNƏB**

### EMBODIMENT OF PATRIOTISM IN CLASSES DEVOTED TO THE ANALYSIS OF ARTISTIC WORKS IN HIGHER SCHOOLS

The article shows works written in the national spirit in literature classes. Each work was analyzed and the place of these works in the national literature was analyzed. Based on this, the motifs created in the national spirit in the works were taken as the basis. The working methods used during the teaching of these works play an important role in the development of students. Thanks to these methods, students not only master the works, but also develop their scientific-research skills. "Kitabi-Dade Gorgud" epic is included in the article. The purpose of the analysis here is to teach students images with modern technologies and to form patriotic feelings in students based on this. In addition, Jafar Jabbarli's work "Ahmed and Gumru" is included in the article, which contains materials reflecting the genocide committed against the people of Azerbaijan. The films and video clips that will be used here will make it possible to become familiar with the current situation of that time. At this time, students will understand the work more deeply. At the same time, the role-playing method used here will also help them understand the feeling and excitement of the plots more deeply when enacting the work.

## РЕЗЮМЕ

**АЛИЕВА ЗЕЙНАБ**

### ВОПЛОЩЕНИЕ ПАТРИОТИЗМА НА ЗАНЯТИЯХ ПО АНАЛИЗУ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ В ВЫСШЕЙ ШКОЛЕ

В статье показаны произведения, написанные в национальном духе на уроках литературы. Проанализировано каждое произведение и

проанализировано место этих произведений в национальной литературе. Исходя из этого за основу были взяты мотивы, созданные в национальном духе в произведениях. Важное значение играют методы работы, используемые при преподавании этих произведений. Роль в развитии учащихся. Благодаря этим методам студенты не только осваивают работы, но и развивают свои научно-исследовательские навыки. В статью включен эпос «Китаби-Даде Горгуд». Целью анализа здесь является обучение студентов изображениям с помощью современных технологий и формирование на этой основе у студентов патриотических чувств. Кроме того, в статью включен труд Джафара Джаббарлы «Ахмед и Гюмру», содержащий материалы, отражающие геноцид, совершенный против азербайджанского народа. Фильмы и видеоклипы, которые здесь будут использованы, дадут возможность ознакомиться с современной обстановкой того времени.В это время учащиеся глубже поймут произведение.В то же время используемый здесь ролевой метод позволит также помогите им глубже понять чувства и волнение сюжетов при разыгрывании произведения.

**İstifadə edilmiş ədəbiyyat:**

1. B.Həsənli.Ədəbiyyatın tədrisi metodikası.Bakı.,2016
2. C. Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005,səh
3. K.Abdulla.Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud"dastanı,Bakı ,"Ada Universiteti",2020 ,səh 281

4. İstiqlal şairinin maarifçilik ideyaları ,525 qəzet,Bakı,2022
5. M.Məmmədov.Əksinqilabçı.Gənclər yurdu jurnal.Tiflis.1918

**Rəyçi: dos.G.Əliyeva**